Kredo 2019.- 9 oktyabr.- S.6;16.



Bilal Ənsər və Hacı Səfalı Nəzərlinin müəlliflikləri ilə 1999-cu ildə "Günəş" nəşriyyatında çapdan çıxmış "Qiyamətə qalmayan qisas" (Ləmbəli, Körpülü və Ayrım şəhidləri haqda portret oçerklər) kitabını çox böyük həyəcanla oxudum. Kitabın annotasiyasındakı aşağıdakı cümlələr kitabda göstərilən kəndlər haqda oxucuda bitkin fikir formalaşdırır: "Ləmbəli, Körpülü və Ayrım kəndləri "ermənistan" deyilən qədim Oğuz yurdunun qürbətdə qalan məşhur yaşayış məskənləridir. Əhalisi 1988-ci il deportasiyasından sonra Azərbaycanın müxtəlif guşələrinə səpələnib".

Bu iki cümlə artıq bəri başdan çox şey deyir. Ön söz əvəzi verilmiş "Ləmbəli, heey!" yazısının adında da həyəcan dolu bir çağırış nidası var. Yazını oxuduqca bu həyəcan hissi daha da güclənir:

"Bu kiçik kitabı araya-ərsəyə gətirməklə biz sizi, bir anlıq da olsa, söz quşumuzun qanadlarında keşiyində başı qarlı Ləlvəri, Babakəri, Muşulu, Yel dağını, Qızıl qayanı qoyub gəldiyimiz, bərəkətli Cadırğan düzündə inildəyən, qayıdışımızı son ana qədər gözləyəcək o doğma torpaqlara qaytarmaq istədik. O torpaqlar ki, Lori-Pəmbək dərəsinin ətəklərindən tutmuş Tona (Debed) çayının zümrüd vadisi boyunca Dəli Kürə qədər uzanıb gedir. Buralar baş tərəfdə Yuxarı Körpülü, sol əldə Böyük Ayrım, mərkəzdə isə Ləmbəli kəndləri olmaqla Ləmbəli elləri adlanır. Qədim və yaxın tarixləri araşdıranda bu el-obanın təxminən 50 para yaşayış məskəni olduğu bəllənir - hamısı da sırf təmiz oğuzların -türklərin Dədə Qorqud yurdudur! Ancaq çox təəssüflər olsun ki, zaman-zaman tülkü xislətli ermənilərin min-bir tələsi ilə 10 il bundan əvvələ kimi onlardan 10-a yaxın azərbaycalı kəndi qalmışdı ki, onların da bəziləri qarışıq millətli idi.Bəli, qalmışdı! 1988-ci ilə kimi qalmışdı! Daha yoxdur! İndi o yerlərdə bir nəfər türk deyilən kəs yoxdur".

Bu cümlələri oxuduqca necə həyəcanlanmayasan, necə kövrəlməyəsən, necə havalanmayasan... Müəlliflər ürəklərinin qanı ilə yazıblar bu kitabı desək, daha düz olar. Çünki burada yurd yanğısı, yurddaş harayı, el-oba təəssübkeşliyi, vətənpərvərlik duyğusu hakimdir. Bilal müəllimlə Səfalı müəllimin vətən sarıdan nanə yarpağı kimi əsib-titrəyən qəlblərinin döyüntüləri sanki kitabın vərəqlərini də tərpədir. "Ləmbəli çox qədim kənddir. Ləmbəli ellərinin keçmiş və indiki ictimai-siyasi və mənəvi dünyası haqqında bir neçə kitabdan məlumat almaq olar" deyən müəlliflər yazırlar: "Araşdıranda

# YURDDAŞ HARAYI

məlum olur ki, onun əsasının qoyulması az qala XI-XII əsrlərə gedib çıxır. Kənd əhalisinin böyük bir hissəsini Ənsərlik (ənsərovlar) adlı tayfa təşkil edirdi. Yadınıza salın. Məhəmməd peyğəmbərin ideyalarını hər yerdə yayan və təbliğ edən ənsarlar. Bu, həmin nəsildir ki, indi İranda, Türkiyədə, Qafqazın hər yerində onlara bol-bol rast gəlmək olur. Onların soy kökləri - familiyaları Ənsari - Ənsərov gedir. Harada məskunlaşmalarından asılı olmayaraq hamısı bir-birlərinə qan qohumudur. Burada ilk məskunlaşanlar isə Hacıöyü, Mürşüddülər olub. Ləmbəli adının yaranmasının iki versiyasını söyləyirlər. Birincisi, "lampa", "ləmpə" sözü ilə bağlıdır. Məlum olduğu kimi, yuxarı dağlarda ilkin yaşayış məskənlərinin adı Günəşli, sonralar bir qədər aşağılarda Çıraqlı olub.

Şüşə lampalarının icadı və neftdən istifadə edilən dövrdə Tona (Debed) çayının vadisinin münbit, bərəkətli torpaqlarına enərək burada məskunlaşmış əhali kəndə Ləmpəli (Ləmbəli)adı vermişlər.

İkinci mülahizə isə daha ağlabatandır. Dəqiq məlumdur ki,Gürcüstanın Qardabani rayonunda bu gün də Ləmbəli adlı böyük bir kənd var. O kəndlə bizim ləmbəlilərin hətta yaxın qohumluqları danılmazdır. Həmin ləmbəlilər yayda bizim Babəkər dağlarına mal-qoyun sürülərini gətirərmişlər. O zamanlar Tonanın sahilləri keçilməz cəngəllik imiş.Ləmbəlilər də bu çətin yolu güc-bəla ilə keçib yaylağa qalxarlarmış. Sonralar həmin yaylaqlarımızın bir qismi daimi yaşayış məskənlərinə çevrilib, ellər, kəndlər çoxalıb,böyüyüb. Beləliklə, "Ləmbəli" adı özünün ikinci ömrünü burada yaşamalı olub. Bu gün də Qardaban camaatının dilində "ləmpəli" sözü "keçilməz", zıvıllıq, "cəngəllik" mənasında işlədilməkdədir.

Ləmbəli inqilaba qədər həmişə Borçalı sultanlığının, sonra Borçalı mahalının tərkibində olub. Sovet hakimiyyəti qurulduqdan sonra isə Tona(Debed) çayının sağ sahilindəki bir neçə Azərbaycan kəndi ilə birlikdə Ermənistan SSR-ə qatılıb" (səh.5).

Ləmbəli adının- toponiminin izahı və coğrafiyası haqda burda verilən məlumatlar bizə bir daha doğma yurd yerlərimizi tanıdır və içimizdəki yurd həsrətini alovlandırır, bizim dədə-baba torpaqlarımıza qayıdıb sahib çıxmaq duyğularımızı hərəkətə gətirir. Yeri gəlmişkən, qeyd edim ki, buradakı bir məqam mənim Bilal müəllimin soyadı ilə bağlı düşüncələrimə aydınlıq gətirdi. Bilal Ənsər kimi tanıdığım Bilal müəllimi xarici görünüşcə Cəbrayıl rayonunun Qarağac kəndindən olan rəhmətlik Səxavət müəllim Səfiyevə (Torpağı sanı yaşasın Bilal müəllim) çox oxşadıram. O ki, qaldı onun Ənsər təxəllüs -soyadına, o da mənim üçün maraqlıdır.

***(Davamı 16-cı səhifədə)***

# YURDDAŞ HARAYI

*(Əvvəli 6-cı səhifədə)*

Cəbrayıl rayonundakı Qarağac kəndi ilə qonşuluqda yerləşən bizim Sofulu kəndi (mən əslən Sofulu kəndindənəm) el arasında ikinci bir adla da Ənsər kəndi kimi tanınır. Ətraf kəndlərin əhalisinin və Sofulu camaatının özünün də qeyri-rəsmi adla Sofulu kəndini Ənsər adlandırması və həmin kəndin əhalisinin Sofulular adı ilə yanaşı ənsərlilər kimi də adlandırılıb-tanınması maraqlıdır. Özü də sovet hakimiyyəti təzə qurulduğu illərdə həmin kənddən 40-dan çox hacı - Həcc ziyarətində olmuşdu. Yəni Sofulu (Ənsər) kəndinin camaatı təbiətən islam dininə çox bağlı olan, seyid təbiətli adamlardır. Əlbəttə, bu özü ayrıca araşdırma tələb edən mövzudur.

Bilal Əhməd oğlu Ənsərovla Səfalı Avdal oğlu Nəzərli kitabın ön sözündə Ləmbəli kəndi ilə bağlı geniş məlumat verdikdən sonra doğma yurdun doğma övladlarının - Ləmbəli, Körpülü və Ayrım kəndlərindən olan şəhidlərin haqqında oçerklərə yer verirlər. Məhəmməd və




Elmar Namazovlar, Yusif Ayvazov, Ələddin Yusifov, Vidadi Ənsərov, Əsildar Məmmədalıyev və başqalarının nakam ömür yolları haqqında yazılanları oxuduqca kövrəlirsən, baxmayaraq ki, müəlliflər ön sözdə tövsiyə edirlər ki, “bu kitabı göz yaşları ilə oxumayın”. Axı bu kitabı müəlliflər özləri də böyük ürək yanğısı ilə yazıblar. Yanğı ilə yazılanları yanğısız, həyəcansız, qəlb titrəmədən oxumaq mümkünmü?

*Şakir* Əlifoğlu